# Paytaxt yerli özünüidarəetməsi:

## beynəlxalq təcrübə və Bakı şəhəri üçün təklif olunan özünüidarə sistemi

İqtisadi Təşəbbüslərə Yardım İB
Bakı - 2010

İqtisadi Təşəbbüslərə Yardım İB
Az1009, Bakı şəhəri,
Zülfü Adıgözəlov küç., ev 21

Tel: (99412) 596 44 59
Faks: (99412) 598 49 78
E-mail: sei@azeronline.com
Website: www.sei.az

**Müəlliflər:** *Rövşən AĞAYEV*
*Azər MEHTİYEV*
*İsa ƏLİYEV*

Kitab paytaxt yerli özünüidarəetməsi sahəsində beynəlxalq təcrübədən bəhs olunur. Eyni zamanda nəşrə Bakı şəhəri üçün mümkün özünüidarə mexanizminin tətbiqi ilə bağlı aparılan araşdırmanın nəticələri də daxil edilir.

Kitab yerli özünüidarə məsələləri ilə məşğul olan dövlət hakimiyyət orqanlarında çalışanların, həmçinin media və QHT təmsilçilərinin inormasiya qıtlığının aradan qaldırılmasına mühüm töhfə olacaq.

*Nəşr Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun maliyyə dəstəyilə həyata keçirilən "Baki şəhərində yerli özünüidarə modelinin işlənməsi və hazırlanmış mexanizmin vəkilliyi" layihəsi çərçivəsində hazırlanıb*

*Kitabın məzmununa görə ACİ - YF heç bir məsuliyyət daşımır.*

**Kitab pulsuz paylanır**

ISBN 9952-8131-0-4

© İqtisadi Təşəbbüslərə Yardım İB

# BAKI - BAKU



# MÜNDƏRİCAT

**Gırış . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5**

**Bakı şəhərində yerli özünüidarənin yaradılmasının əhəmiyyəti və vacibliyi . . . . . . . . . . . . 7**

**Bakı şəhərinin idarə edilməsinin müasir vəziyyəti . . . . 11**

Bakı şəhərinin idarə edilməsi tarixi haqqında . . . . . . . 11

Bakı şəhəri İcra Hakimiyyətinin strukturu . . . . . . . . . 17

Bakı şəhər İcra Hakimiyyətinin əmlakı və fəaliyyətinin maliyyələşdirilməsi . . . . . . . . . 30

Bakı şəhərində yerli özünüidarəetmənin təşkili . . . . . . 32

**Beynəlxalq təcrübədə paytaxt şəhərlərin statusu. . . . . 33**

Paytaxt şəhərlərin statusunun qanunvericilikdə əks olunması . . . . . . . . . . . . . . . 36

Paytaxt şəhərlərinin inzibati statusu və özünüidarə modelləri . . . . . . . . . . . . . . . . . . . 38

Paytaxt şəhərlərinin yerli özünüidarə orqanları . . . . . . 41

Paytaxt şəhərləri ilə dövlətin digər səviyyələri arasındakı münasibətlər . . . . . . . . . 46

**Bakı şəhərində yerli özünüidarə: təklif olunan mümkün variantlar . . . . . . . . . . . . . . . . 51**

Bakı Şəhər Bələdiyyə Şurası: birpilləli sistem . . . . . . . 52

Bakı Şəhər Bələdiyyə Şurası: ikipilləli sistem . . . . . . . 54

Təklf olunan modellərin reallaşdırma imkanları . . . . . . 56

**Əlavə1.** Bakı şəhər bələdiyyələrinin siyahısı . . . . . . . . . 58

**Əlavə 2.** Bakı şəhər meriyasının nümunəvi strukturu. . . . . 61

İstifadə olunmuş ədəbiyyat siyahısı. . . . . . . . . . . . . . 62

**Local self-governance in capital cities: international practice and recommendations for improving self-government system of Baku . . . . . . . 63**

# GIRIŞ

*Yerli özünüidarə sistemində paytaxt şəhərlərinin rolu böyük əhəmiyyətə malikdir. Bu şəhərlər paytaxtı olduğu ölkələr üçün rəmzi məna daşımaqla yanaşı, həm də ölkənin yerli özünüidarə sistemində xüsusi statusa malik olurlar. Başqa sözlə desək, bəzi hallarda beynəlxalq aləmdə bütün ölkəni təmsil edə bilən paytaxt şəhərləri əsasən siyasi, iqtisadi və mədəni mərkəzlər hesab olunurlar.*

Belə ki, əksər hallarda dövlətin əsas siyasi institutlarının yerləşdiyi və ölkə üzrə orta göstəriciyə nisbətən daha çox əhalinin məskunlaşdığı paytaxt şəhərlər təmsil etdikləri ölkələrin iqtisadiyyatında əhəmiyyətli rola malik olur və milli gəlirin böyük hissəsini təmin edirlər.

Məhz qeyd olunan bu ümumi xüsusiyyətlər paytaxt şəhərlərini digər böyük yaşayış və sənaye mərkəzlərindən fərqləndirmək və paytaxt şəhərlər üçün xüsusi statusun müəyyən edilməsi zərurətini ortaya çıxarır. Beynəlxalq təcrübədə paytaxt şəhərlərinin statusu üçün ölkələrarası yaxud beynəlxalq konvensiya və ya standartlar toplusu mövcud olmasa da, bu cür şəhərlərin statusu ilə bağlı ayrı-ayrı sənədlərin (məsələn, Yerli özünüidarə haqqında Avropa Xartiyası, Avropa Şurasının üzv dövlətlər arasında apardığı araşdırmalar və Açıq Cəmiyyət İnstitutunun bu sahədə apardığı tədqiqatlar) bəzi hissələrində

ümumi müddəalar öz əksini tapmışdır. Paytaxt şəhərlərinin statusu ilə bağlı ən dəyərli araşdırma işi Avropa Şurasının tövsiyəsi ilə bir qrup müstəqil tədqiqatçının Avropa Şurasına daxil olan dövlətlər arasında apardığı sorğudur[1]. Kitabda beynəlxalq təsrübənin təqdim olunması zamanı məhz iki sənədə – AŞ ekspertlərinin apardığı adıçəkilən sorğuya və Baltik ölkələrinin təcrübəsini əks etdirən tədqiqata istinad olunub[2].

Nəşrdə təqdim olunan araşdırma çərçivəsində paytaxt şəhərlərinin statusu və onların institusional baxımdan təşkili, həmin şəhərlərin statusunun milli qanunvericilikdə əks olunması, bu cür statusun paytaxt şəhərləri üçün hüquqi əhəmiyyəti, nəhayət paytaxt şəhərlərilə mərkəzi hökumət (həmçinin digər yerli idarəetmə orqanları) arasında münasibətlərin tənzimlənməsi sahəsində beynəlxalq təcrübə öyrənilib. Təcrübələrin öyrənilməsində əsas məqsəd Bakı şəhəri üçün uyğun yerli özünüidarə modelinin işlənib hazırlanması və sənədin səlahiyyətli dövlət orqanlarına təqdim edilməsi olub.

1 CPL (10) 4 – Management of European Capital Cities (14/05/03). Explanatory Memorandum. www.coe.int

2 «Capital City Management in Estonia, Latvia and Lithuania After Restoring Their Independence». Administrative Culture (Halduskultuur Journal), issue: 07 / 2006, pages: 50-77

# BAKI ŞƏHƏRİNDƏ YERLİ ÖZÜNÜİDARƏNİN YARADILMASININ ƏHƏMİYYƏTİ VƏ VACİBLİYİ

*Azərbaycan Avropa Şurasının paytaxtında seçkili idarə sistemi yaratmayan yeganə üzv-dövləti olmaqla yanaşı, ölkədə bu institutun yaradılması üçün yetərli ictimai rəy də formalaşmayıb. Halbuki Avroatlantik məkana inteqrasiya yolu tutmuş, idarəetmədə əksmərkəzləşdirmə və demokratik islahatları hədəf seçmiş ölkə üçün hazırkı şərait heç də arzuolunan deyil.*

Başqa tərəfdən, son 100 ildə dünyada şəhərlər, xüsusilə də paytaxt şəhərləri elə sürətlə böyüyüb ki, onlar əhalisinin sayının çoxluğu və ərazisinin ölçülərinin böyüklüyü baxımından «ölkə içində ölkəyə» çevriliblər. **Əvvəla,** ölkənin istənilən aqlomerasiyası özündə paytaxt şəhəri qədər çoxsaylı inzibati ərazi vahidlərini birləşdirmir. Bu ərazi vahidlərinin hər biri isə bir-birinə sıx infrastruktur tellərilə bağlı olur. İdarəetmədə vahidlik, onlar arasında əlaqləndirmə təmin olunmadıqda isə paytaxt təsərrüfatının idarə olunmasında pərakəndəlik və xaos yaranır. Paytaxt şəhəri elə mürəkkəb və daimi inkişaf edən mexanizmdir ki, razılaşdırılmış strategiya olmadıqda nəticələrin aradan qaldırılması ölkə üçün böyük resurslara başa gələ bilər. Başqa tərəfdən, eyni şəhər daxilində bütün sakinlərin ictimai xidmətlərə bərabər şəkildə çıxışı olmalıdır. İdarəetmənin tamlığı təmin olunmadan isə bu disbalansın aradan qaldırılması olduqca çətindir. Hazırda Bakı şəhərində xidmətlərə çıxışda kəskin fərqin olmasını görməmək sadəcə mümkünsüzdür: istər elektrik, qaz və su ilə təchizat, istərsə də yol və ictimai nəqliyyatla təminat səviyyəsi Nəsimi və ya Səbail rayonu ilə müqayisədə Sabunçu, Qaradağ və ya Suraxanı rayonunda

xeyli pisdir. Paytaxtda idarəetmənin vahidliyini zəruri edən digər bir amil maliyyə resurslarının tarazlaşdırma mexanizmləri vasitəsilə paytaxtın müxtəlif əraziləri arasında ədalətli bölgüsünü təmin etməkdir. Heç şübhəsiz, daha zəngin, biznesin və əhalinin daha sıx yerləşdiyi ərazilərin resurslarının daha yoxsul ərazilərin xeyrinə bölüşdürülməsinə ehtiyac var. Nəhayət, Yerli özünüidarə haqqında Avropa Xartiyasının 4.3-cü maddəsinin tələbi (subsidiarlıq prinsipini ehtiva edən həmin maddəyə görə yerli problemlərin həlli ilə bağlı dövlət funksiyalarının həyata keçirilməsi bir qayda olaraq vətəndaşlara ən yaxın qurumlara – yerli özünüidarə orqanlarına verilməlidir) hazırda təyinat əsasında formalaşan və öz sakinləri qarşısında hər hansı formada hesabatlı olmayan Bakı şəhər İcra Hakimiyyətinin səlahiyyətlərinin demokratik seçkilər əsasında formalaşan mer institutuna ötürülməsini zəruri edir.

Avropa Şurası üzv dövlətlərə paytaxt şəhərlərinin özünüidarəsinə dair axır 6 ildə 2 tövsiyyə ünvanlayıb. «Paytaxt şəhərlərinin idarə olunması haqqında» 133 saylı Tövsiyəyə əsasən, paytaxt şəhərlərinə elə şərait yaradılmalı və elə səviyyədə resurslar təqdim olunmalıdır ki, onlar öz administrativ funksiyalarını müstəqil həyata keçirə bilsinlər. Öz növbəsində tövsiyə-sənədinin 12-ci bəndinə görə, istənilən paytaxt şəhərinin idarə olunmasının əsas şərtlərindən biri vətəndaşların qərar qəbulu prosesində iştirakının təmin olunmasıdır[3].

Bundan əlavə, Avropa Şurasının «Paytaxt şəhərlərinin statusu haqqında» 219 saylı Tövsiyəsi də (sənəd 2007-ci ildə qəbul olunub) mərkəzi şəhərlərdə vahid yerli özünüdarə prinsiplərinin tətbiqini nəzərdə tutur. Tövsiyə sənədinin 8-ci bəndində deyilir ki, mərkəzi hökumətin nəzarəti altında olan qurumlar paytaxtın yerli özünüidarə qurumlarının fəaliyyətini kompensasiya edə bilməz[4].

---

3 Tövsiyə 21 may 2003-cü il tarixində Yerli Hakimiyyətlər Palatası, 22 may 2003-cü il tarixində Konqresin Daimi Komissiyası tərəfindən təsdiq edilib.

Bakıda mer seçkilərinin keçirilməsi Avropa Şurasının Azərbaycan hökumətinə ünvanladığı «Azərbaycanda yerli və regional demokratiya haqqında» 21 may 2003-cü il tarixli 126 saylı Tövsiyənin də başlıca müddəalarından biridir. Sənədin 8.2.6-cı bəndində qeyd olunur: «Hazırda Bakı şəhəri dövlətin icra orqanları tərəfindən idarə olunur. Nəzərə almaq lazımdır ki, bir sıra hallarda paytaxt şəhəri yerli maraqların çərçivəsini aşan məsələləri həll etməlidir. Həmin maraqlar naminə idarəetmədə qənaət və effektivliyi təmin etmək üçün bütün şəhər miqyasını əhatə edən demokratik şura seçilməlidir. Lakin bu prinsip kiçik ərazilərdə bələdiyyələrin yaradılması ideyası ilə ziddiyyət təşkil etmir, sadəcə onların fəaliyyəti bütün şəhəri təmsil edən bələdiyyənin yaradılması ilə tamamlanmalıdır».

Bütün bunları nəzərə alaraq Yerli və Regional Hakimiyyətlər Konqresi Azərbaycan hökumətinə tövsiyə edir ki, yaxın zamanlarda paytaxt şəhəri haqda qanun qəbul etsin. Həmin qanun bütün şəhəri əhatə edən və bilavasitə əhali tərəfindən seçilən paytaxtın yerli özünüidarə administrasiyasının yaradılmasını nəzərdə tutmalıdır»[5]

Nəhayət, paytaxt şəhərlərinin statusu ilə bağlı Avropa Şurasına üzv olan dövlətlər arasında qurumun ekspertlərinin apardığı sorğulara əsasən qurum üzv dövlətlərin paytaxt şəhərləri ilə bağlı aşağıdakı ümumiləşdirilmiş nəticələr əldə etmiş və bu nəticələrə uyğun olaraq öz tövsiyyələrini hazırlamışdır:

1) Yerli Özünüidarə haqqında Avropa Xartiyasına əsasən, digər şəhərlərdən fərqli olaraq xüsusi əhəmiyyətə malik paytaxt şəhərləri vahid yerli özünüidarə hökumətinə malik olmalıdır. Pay-

---

4 Yerli və Regional Hakimiyyətlər Konqresinin 21 may 2007-ci il tarixli, 219 saylı Tövsiyəsi. www.coe.int

5 YRHK-nın «Azərbaycanda yerli və regional demokratiya haqqında» 21 may 2003-cü il tarixli 126 saylı Tövsiyəsi

taxt şəhərlərinin təyin olunmuş icraedicilər və ya yerli idarə orqanları tərəfindən idarə edilməsi Avropa Xartiyasının məqsədlərinə ziddir. Avropa Şurası yerli özünüidarəetmə sistemi mövcud olmayan paytaxt şəhərlərində bu cür idarəçilik sisteminin yaradılmasını və paytaxt şəhərlərinin müvafiq qanunverici və icraedici orqanlarının səsvermə əsasında seçilməsini tövsiyyə edir.

2) Müxtəlif ölkələrdə paytaxt şəhərlərinin statusunun fərqli olması Avropa Xartiyasının prinsiplərinə zidd olduğu anlamına gəlmir. Belə ki, bir sıra ölkələrdə paytaxt şəhərlərin statusu ilə bağlı konstitusiyada və ya ayrıca qanunvericilikdə müvafiq müddəaların nəzərdə tutulmasına baxmayaraq, digər ölkələrdə paytaxt statusu tarixi və mədəni ənənələrə və sosial razılığa əsaslana bilər.

3) Paytaxt şəhərlərinin statusunu müəyyən edilməsi və mərkəzləşdirilmiş yerli özünüidarə orqanının yaradılması zamanı yerli özünüidarənin prinsipinin təmin olunması məqsədilə paytaxt şəhərlərinə öz yerli özünüidarə sistemini formalaşdırmaq imkanı verilməlidir. Bu zaman paytaxtın mərkəzi yerli özünüidarə orqanları ilə inzibati rayonlarının yerli özünüidarə orqanları arasında səlahiyyət bölgüsü dəqiq müəyyən edilməlidir.

4) Paytaxt şəhərlərinə yerli gəlirləri formalaşdırmaq üçün kifayət qədər imkanlar təmin olunmalıdır.

Beləliklə, yuxarıda qeyd olunan bütün arqumentləri ümumiləşdirsək, Bakı şəhərində vahid paytaxt yerli özünüidarəsinin formalaşdırılması kifayət qədər ləngiyib. Bu səbəbdən İqtisadi Təşübbüslərə Yardım İctimai Birliyinin ekspertləri qeyd olunan bütün yanaşmaları nəzərə alaraq paytaxt aqlomerasiyası kimi Bakı şəhərinin yerli özünüidarə modelinin işlənməsi və onun hökumət qurumlarına təqdim olunması, həmçinin bu sahədə islahatların sürətlənməsinə töhfə vermək üçün işlənmiş mexanizmin vəkilliyinin aparılması təşəbbüsü ilə çıxış edib .

# BAKI ŞƏHƏRİNİN İDARƏ EDİLMƏSİNİN MÜASİR VƏZİYYƏTİ

## Ümimi məlumat

Azərbaycan Respublikasının Konstitusiyasının 22-ci («Paytaxt») maddəsində Bakı şəhəri Azərbaycan Respublikasının paytaxtı kimi təsbit olunub. Lakin Bakı şəhərinin paytaxt statusu haqqında ayrıca qanun yoxdur.

Azərbaycanda 2009-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının ilkin nəticələrinə görə Bakı şəhərində 2 milyon 046,1 min nəfər yaşayır.

Bakı şəhəri 11 inzibati rayondan ibarətdir. Bundan başqa, şəhərdə 59 qəsəbə mövcuddur.

Bakı şəhərində 52 bələdiyyə, o cümlədən 7 rayon və 45 qəsəbə bələdiyyəsi fəaliyyət göstərir.

## Bakı şəhərinin idarə edilməsi tarixi haqqında

Məlum olduğu kimi, Bakı şəhəri 1860-cı ildə quberniyanın paytaxtına çevrilib. Azərbaycan Xalq cümhuriyyəti qurulan ilk dövrdə paytaxt müvəqqəti Gəncə şəhəri elan olunsa da qısa müddətdən sonra yenə Baki mərkəzə çevrildi. SSRİ dövründə də Bakı şəhəri Azərbaycan SSR-in paytaxtı olub. 1991-ci ildən isə Bakı müstəqil Azərbaycan Respublikasının paytaxtıdır. Bu dövrlər ərzində Bakı şəhərinin idarə edilməsi modelləri də zaman-zaman dəyişib.

♦ ***1878 – 1918  - Bakı Şəhər Duması***

Bakıda Dumaya ilk seçkilər 1878-ci ildə keçirilib. Bu seçkilər Rusiyada şəhər özünüidarə orqanlarının, yəni dumaların və bələdiyyə idarələrinin yaradılması barədə rus imperatorunun 1870-ci il iyunun 16-da verdiyi fərmana əsasən həyata keçirilmişdi. Həmin fərmana əsasən Rusiyanın bütün iri şəhərlərində bələdiyyə idarələri təşkil olundu və dumaların yaradılması seçkilərinə başlanmışdı. Bakıda isə bu fərman ancaq səkkiz il sonra həyata keçirilmişdi. (**Qeyd:** *Bakı Şəhər İcra Hakimiyyətinin veb-saytında (www.bakucity.az*) bununla bağlı maraqlı bir izah var: Bunu da onunla izah edirdilər ki, guya qeyri-millətlər özlərini idarə etməyə hələ qadir deyillər6.)

İlk Dumaya 72 nəfər, sonralar 75 nəfər üzv seçilmişdi. Duma üzvünə o zaman "qlasnı" deyilirdi. Fərmana görə, azərbaycanlıların sayı Duma üzvlərinin ümumi sayının yarısından çox ola bilməzdi. Dumaya yaşı 25-dən yuxarı olan, daşınmaz əmlak sahibləri və ya 1500 manatlıq məbləğdə ticarət və sənaye müəssisələrinə malik şəxslər seçilə bilərdilər. Bələdiyyə idarələri icraçı, Duma isə qanunverici orqan hesab edilirdi. Şəhər təsərrüfatının qurulması üçün Duma qərar verir, bələdiyyə idarəsi isə bu qərarı yerinə yetirirdi.

♦ ***1939-1977 - Bakı Şəhər Zəhmətkeş Deputatları Sovetinin İcraiyyə Komitəsi***

♦ ***1977-1991 - Bakı şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi***

♦ ***1991-ci ildən bəri -  Bakı Şəhər İcra Hakimiyyəti***

Azərbaycanın siyasi müstəqilliyi bərpa edildikdən dərhal sonra «Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək

haqqında» Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 1991-ci il tarixli 372 saylı Fərmanı ilə ölkənin rayonlarında, şəhərlərində, şəhər rayonlarında icra hakimiyyətinin başçısı vəzifəsi təsis edilib. Bu Fərmanla habelə «Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində dövlət hakimiyyət və idarəetmə orqanları haqqında Əsasnamə» də təsdiq edilib.

Fərmanda göstərilirdi ki, rayonlarda, şəhərlərdə, şəhər rayonlarında icra hakimiyyətinin başçısı təyin edilən kimi rayonların, şəhərlərin (respublika tabeli şəhərlərin) xalq deputatları Sovetlərinin və onların icraiyyə komitələrinin səlahiyyətlərinə xitam verilir və bunlar öz fəaliyyətlərini dayandırırlar. Rayonun, şəhərin icra hakimiyyətinin başçısı kəndlərdə, qəsəbələrdə, şəhərlərdə (rayon tabeli şəhərlərdə) öz nümayəndələrini təyin edən kimi həmin inzibati-ərazi vahidlərinin xalq deputatları Sovetlərinin və onların icraiyyə komitələrinin səlahiyyətlərinə xitam verilir.

Beləliklə, məlumatdan göründüyü kimi, Azərbaycanın müstəqilliyinin bərpa edildiyi 1991-ci ilədək – həm Çar Rusiyası, həm də SSRİ dövrlərində - Bakı şəhəri əsasən seçkili orqanlar tərəfindən idarə edilib. 1991-ci ildən sonra isə şəhərin idarə edilməsi seçkili orqanlar tərəfindən yox, ölkə prezidentinin təyin etdiyi və yalnız ona tabe olan Şəhər İcra Hakimiyyəti başçısına həvalə edilib.

## Bakı şəhəri İcra Hakimiyyətinin başçısı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinə uyğun olaraq yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər. Yerli icra hakimiyyətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

Azərbaycan Respublikası Prezidentinin 16 iyun 1999-cu il tarixli 138 saylı Fərmanı ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə", habelə şəhər və rayon icra hakimiyyəti başçısı aparatı, rayon və şəhər icra hakimiyyəti orqanlarının rayon tabeliyində olan şəhərlərdə, qəsəbə və kəndlərdə nümayəndəliklərinin nümunəvi strukturu və ştat sayı təsdiq edilib.

Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin 2-ci maddəsinə əsasən icra hakimiyyəti başçıları öz işlərinə görə Azərbaycan Respublikasının Prezidenti qarşısında məsuliyyət daşıyırlar. İcra hakimiyyəti başçıları öz fəaliyyətləri haqqında ildə bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə və mütəmadi olaraq Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına hesabat verir (6-cı maddə).

Əsasnamənin 7-ci maddəsinə uyğun olaraq, yerli icra hakimiyyətləri başçıları bilavasitə və ya müvafiq yerli icra hakimiyyəti orqanları vasitəsilə səlahiyyətləri daxilində müvafiq ərazinin sosial-iqtisadi məsələlərini həll edir, onların səlahiyyətlərinə edilən digər məsələləri həll edirlər.

## İcra hakimiyyəti başçısı:

*1) Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarını yerinə yetirir;*

*2) Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş dövlət proqramlarının, habelə müvafiq yerli proqramların həyata keçirilməsi üçün tədbirlər görür;*

*3) bu Əsasnamədə nəzərdə tutulmuş qaydada öz aparatını təşkil edir, qanunvericiliklə müəyyən edilmiş qaydada şöbə, idarə və xidmətləri, müəssisə, idarə və təşkilatları yaradır və ləğv edir, tabeçiliyində olan orqan, idarə, müəssisə və təşkilatların rəhbərlərini qanunvericiliyə əsasən vəzifəyə təyin və vəzifədən azad edir, onların aktlarını qanunvericiliyə zidd olduqda ləğv edir;*

*4) yerli icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid məsələlərlə bağlı müvafiq dövlət orqanları, respublikanın və xarici ölkələrin fiziki və hüquqi şəxsləri ilə qanunvericiliklə müəyyən edilmiş qaydada müqavilələr bağlayır;*

*5) müvafiq inzibati-ərazi vahidində müvafiq icra hakimiyyəti orqanları tərəfindən və tabeliyində olan müəssisə, idarə və təşkilatlar tərəfindən vətəndaşların yazılı və şifahi şəkildə təkliflər vermək, ərizə ilə müraciət etmək hüquqlarının həyata keçirilməsi üçün zəruri şərait yaradır, qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə onlara cavab verilməsini təmin edir və nəzarəti həyata keçirir, vətəndaşların qəbul olunmasını təşkil edir və nəzarəti həyata keçirir; vətəndaşların əsaslandırılmış təkliflərini öz fəaliyyətində nəzərə alır;*

*6) icra hakimiyyəti orqanlarında işçilərin yerləşdirilməsini, onların ixtisasının artırılmasını təşkil edir;*

*7) qanunvericiliyə əsasən icra hakimiyyəti başçısı aparatının işçilərinə münasibətdə həvəsləndirmə və intizam tədbirləri tətbiq edir;*

*8) seçkilərin, ümumxalq səsvermələrinin (referendumların) və müzakirələrin keçirilməsini qanunvericiliklə müəyyən edilmiş qaydada təmin edir;*

*9) müvafiq icra hakimiyyəti orqanları qarşısında ərazinin inkişafına dair məsələlər qaldırır, təkliflər verir;*

*10) rayonu, şəhəri, şəhər rayonunu dövlət orqanları ilə münasibətlərdə, rəsmi protokol tədbirlərində təmsil edir;*

*11) icra hakimiyyəti orqanının fəaliyyəti ilə bağlı məlumatların əhaliyə mütəmadi çatdırılması məqsədi ilə kütləvi informasiya vasitələrində məlumatlar verilməsini təmin edir;*

*12) bu Əsasnamə ilə və Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş digər vəzifələri həyata keçirir.*

Məlum olduğu kimi Bakı şəhərinin ərazisi 11 inzibati payona bölünür. Bakı şəhər icra hakimiyyəti başçısından əlavə hər bir rayonun da icra hakimiyyəti başçısı var və onlar da Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir və yuxarıda

göstərilən bütün vəzifələr onlara da eyni dərəcədə şamil olunur. Beləliklə, Bakı şəhəri ərazisində 2 səviyyəli yerli icra hakimiyyətləri fəaliyyət göstərir və yerli icra hakimiyyəti başçılarının səlahiyyətləri hər 2 səviyyəyə eyni dərəcədə şamil edilmiş olur.

Əsasnamənin 5-ci maddəsində də qeyd olunur ki, rayonlarda, şəhərlərdə və şəhər rayonlarında icra hakimiyyətlərinin başçıları müvafiq inzibati-ərazi vahidlərində icra hakimiyyətini həyata keçirirlər. Bu Əsasnamədə və mövcud digər qanunvericilikdə Bakı şəhər İcra Hakimiyyəti başçısı ilə Bakı şəhərinin rayonlarının İcra Hakimiyyətləri başçıları arasında dəqiq bir səlahiyyət bölgüsü təsbit olunmayıb. Yalnız Əsasnamənin 7-ci maddəsinin 3-cü bəndində rayon bölgüsü olan şəhərin icra hakimiyyəti başçısının, yuxarıda göstərilən vəzifələrlə yanaşı, aşağıdakı vəzifələri də həyata keçirməsi nəzərdə tutulur:

1) şəhər rayonlarının icra hakimiyyəti başçılarına rəhbərliyi həyata keçirir; şəhər rayonlarının icra hakimiyyəti başçılarının hesabatlarını dinləyir;

2) şəhərin iqtisadi, sosial inkişaf və ekoloji proqramlarının, Azərbaycan Respublikasının dövlət büdcəsindən ayırmaların layihəsinin və dövlət proqramlarının layihələrinin hazırlanması zamanı şəhər rayonlarının icra hakimiyyəti başçılarından müvafiq təkliflər alır;

3) şəhərin vahid inzibati ərazi kimi idarə edilməsində, ümumşəhər məsələlərinin səmərəli həll edilməsində, şəhərin sosial-iqtisadi inkişafında və səlahiyyətlərinə aid olan digər məsələlərin həllində vəhdəti təmin etmək məqsədi ilə şəhər rayonlarının icra hakimiyyəti başçılarının fəaliyyətini əlaqələndirir;

4) şəhər rayonlarının icra hakimiyyəti başçılarının aktları Azərbaycan Respublikası qanunvericiliyinə zidd olduqda onları ləğv edə bilər.

Bakı şəhəri İcra Hakimiyyəti başçısının 1 birinci müavini və 5 müavini var. Bakı şəhəri İcra hakimiyyəti başçısının müavinləri Azərbaycan Respublikası Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Müavinlər icra hakimiyyəti başçısının apardığı vəzifə bölgüsünə əsasən şəhərin ərazisində icra idarəetmə fəaliyyətini həyata keçirir, icra hakimiyyəti başçısının tapşırıqlarını yerinə yetirir.

Əsasnamənin 9-cu maddəsinə uyğun olaraq, icra hakimiyyəti başçısı öz yanında rayonun, şəhərin və şəhər rayonunun iqtisadi, sosial-mədəni və digər yerli məsələlərinin baxılması (müzakirəsi) və onların həllinə dair təkliflərin hazırlanması məqsədi ilə daimi məşvərətçi orqan olan Şura yaradır. Şuranın tərkibi 15 nəfərədək ola bilər. Şuranın tərkibinə aşağıdakılar daxildir: icra hakimiyyəti başçısı, icra hakimiyyəti başçısının müavinləri, icra hakimiyyəti başçısının mülahizəsinə əsasən icra hakimiyyəti başçısı aparatının, şöbə, idarə və digər xidmətlərinin rəhbərləri, rayonun və şəhərin ərazisində yerləşən idarələrin, təşkilatların və müəssisələrin rəhbərləri. Şuranın iclasları ayda iki dəfədən az olmayaraq keçirilir. Şuranın iclaslarında qəbul edilmiş qərarlar tövsiyə xarakteri daşıyır.

## Bakı şəhəri İcra Hakimiyyətinin strukturu

Əsasnamənin 10-cu maddəsinə əsasən icra hakimiyyəti başçısının fəaliyyətinin təmin edilməsi məqsədi ilə onun aparatı yaradılır. Azərbaycan Respublikası şəhər və rayon icra hakimiyyəti başçısı aparatı, rayon və şəhər icra hakimiyyəti orqanlarının rayon tabeliyində olan şəhərlərdə, qəsəbə və kəndlərdə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayı Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 16 iyun tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Həmin Fərmanla Bakı şəhər İcra Hakimiyyəti başçısı aparatının nümunəvi strukturu və ştat vahidlərinin sayı aşağıdakı kimi müəyyən edilib:

*Cədvəl 1*

**Bakı şəhər İcra Hakimiyyəti başçısı aparatının nümunəvi strukturu və ştat vahidlərinin sayı**[6]

| Struktur bölmələrinin adı | Ştat vahidləri |
|---|---|
| Rəhbərlik | 13 |
| Ərazi idarəetmə orqanları ilə iş şöbəsi | 15 |
| Hüquq şöbəsi | 3 |
| İctimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsi | 4 |
| Təhsil, səhiyyə və mədəniyyət şöbəsi | 4 |
| Qaçqınlar və məcburi köçkünlərlə iş şöbəsi | 3 |
| Şəhər təsərrüfatı şöbəsi | 8 |
| Mənzillərin uçotu, bölüşdürülməsi və dəyişdirilməsi şöbəsi | 10 |
| Əsaslı tikinti və təmir şöbəsi | 3 |
| Mətbuat və informasiya xidməti | 3 |
| Nəzarət şöbəsi | 5 |
| Xüsusi şöbə | 4 |
| Ümumi şöbə | 63 |
| Mühasibat | 3 |
| İdarə arxivi | 3 |
| **Cəmi:** | **144** |

İcra hakimiyyəti başçısı təsdiq olunmuş icra hakimiyyəti başçısı aparatının nümunəvi strukturu və ştat vahidlərinin sayı çərçivəsində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı ilə

6 Bakı şəhəri icra hakimiyyətinin rəsmi internet səhifəsi - www.bakucity.az

razılaşdırmaqla öz aparatının struktur bölmələrinin ştat vahidlərini bir bölmədən digərinə keçirə bilər.

Prezidentin 1999-cu il 16 iyun tarixli 138 nömrəli Fərmanı ilə həm də Bakının rayonlarının icra hakimiyyəti başçılarının aparatlarının nümunəvi strukturu və ştat vahidlərinin sayı da təsdiq edilib.

*Cədvəl 2*

**Bakının rayonları üzrə icra hakimiyyəti başçıları aparatlarının nümunəvi strukturu və ştat vahidlərinin sayı**

| Struktur bölmələrinin adı | Ştat vahidləri | |
|---|---|---|
| | Səbail, Nəsimi, Nərimanov, Nizami, Xətai və Yasamal rayonları üzrə | Əzizbəyov, Qaradağ, Suraxanı, Sabunçu, Binəqədi rayonları üzrə |
| Rəhbərlik | 7 | 7 |
| Ərazi idarəetmə orqanları ilə iş şöbəsi | 4 | 3 |
| Hüquq şöbəsi | 3 | 3 |
| İctimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsi | 3 | 3 |
| Sosial-iqtisadi məsələlər şöbəsi | 5 | 4 |
| Təhsil, səhiyyə və mədəniyyət şöbəsi | 3 | 3 |
| Qaçqınlar və məcburi köçkünlərlə iş şöbəsi | 3 | 3 |
| Rayon təsərrüfatı şöbəsi | 4 | 3 |
| Ümumi şöbə | 6 | 6 |
| Mühasibat | 1 | 1 |
| Xidmət heyəti | 6 | 6 |
| **Cəmi:** | **45** | **42** |

Əsasnamə yerli icra hakimiyyəti başçısının aparatından əlavə, müvafiq ərazidə iqtisadi-sosial-mədəni inkişaf məsələlərinin təmin edilməsi məqsədilə hüquqi şəxs statuslu müəyyən idarə, şöbə və xidmətlərin də yaradılmasına yol verir. Bu məsələlər Əsasnamənin 11-ci maddəsi (Yerli icra hakimiyyətinin şöbə, idarə və digər xidmətləri) ilə tənzimlənir. Əsasnamənin həmin maddəsi aşağıdakı kimidir:

**Maddə 11. Yerli icra hakimiyyətinin şöbə, idarə və digər xidmətləri**

1. İcra hakimiyyəti başçısı müvafiq ərazidə iqtisadi sosial-mədəni inkişaf məsələlərinin və onun səlahiyyətlərinə bu Əsasnamə ilə və Azərbaycan Respublikasının Prezidenti tərəfindən aid edilən digər məsələlərin həllini təmin etmək məqsədi ilə büdcədə nəzərdə tutulmuş xərclər dairəsində, habelə özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərən hüquqi şəxs statusu olan şöbə, idarə və digər xidmətlərinin yaradılması barədə təkliflər verə bilər.

Bu maddənin 1-ci hissəsinin birinci abzasında göstərilən şöbə, idarə və digər xidmətlər haqqında əsasnamələri yerli icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbəri təsdiq edir.

İcra hakimiyyəti orqanının şöbə, idarə və digər xidmətləri ikili tabelikdə ola bilər, yəni həm müvafiq yerli icra hakimiyyəti orqanına, həm də Azərbaycan Respublikasının müvafiq nazirliklərinə və digər mərkəzi icra hakimiyyəti orqanlarına tabe ola bilər.

2. Bu Əsasnamənin 5-ci maddəsinin 2-ci hissəsində müəyyən edilmiş müddəalar icra hakimiyyəti orqanının şöbələrinin, idarələrinin və digər xidmətlərinin vəzifəli şəxslərinə də şamil edilir.

3. Yerli icra hakimiyyəti orqanının şöbələri, idarələri və digər xidmətləri Azərbaycan Respublikasının dövlət büdcəsindən

(Naxçıvan Muxtar Respublikasında – Naxçıvan Muxtar Respublikasının büdcəsindən) ayırmalar hesabına maliyyələşdirilir və ya özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərir.

Əsasnamənin bu maddəsi ilə bağlı bir neçə ziddiyyətli məqam diqqəti cəlb edir. Belə ki:

** bu maddədə yerli icra hakimiyyəti başçılarının bilavasitə özləri tərəfindən müəyyən şöbə, idarə və digər xidmətlərinin yaradılması nəzərdə tutulmur. Əsasnamənin başqa maddələrində də yerli icra hakimiyyəti başçılarının nə dövlət büdcəsindən maliyyələşən, nə də özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərən idarə, şöbə və xidmətlərin yaradılması hüququ təsbit olunmayıb. Burada birmənalı olaraq göstərilib ki, yerli icra hakimiyyəti başçıları həm dövlət büdcəsindən maliyyələşən, həm də özünümaliyyələşmə əsasında fəaliyyət göstərən idarə, şöbə və xidmətlərin yaradılması üçün yalnız təkliflər verə bilər. Hətta belə təkliflərin hansı dövlət orqanına verilməsi də Əsasnamədə dəqiq bilinmir;*

** bu maddənin tələbinə görə, yerli icra hakimiyyəti orqanında yaradılan belə şöbə, idarə və digər xidmətlər haqqında əsasnamələri də yerli icra hakimiyyəti başçıları yox, onlarla razılaşdırmaqla müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbəri təsdiq edir;*

** burada həmçinin qeyd olunur ki, yerli icra hakimiyyəti orqanının şöbə, idarə və xidmətləri ikili tabelikdə ola bilər (yəni həm yerli icra hakimiyyəti orqanına, həm də müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına tabe ola bilər). Lakin nə bu Əsasnamədə, nə də başqa qanunvericilik sənədlərində belə ikili tabeçilik zamanı müvafiq yuxarı orqanların hər birinə tabeçiliyin dəqiq çərçivələri və əlaqələndirmə məsələləri əks olunmayıb;*

** Yerli icra hakimiyyəti orqanının özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərən idarələri və xidmətləri ilə yerli icra hakimiyyəti orqanının münasibətlərinin necə qurulması məsələləri də Əsasnamədə əksini tapmayıb.*

Bakı şəhər İcra Hakimiyyətinin veb-saytında icra hakimiyyətinin strukturu aşağıdakı kimi verilir[7]:

- *Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamenti*
- *Diplomatik korpusa və xariji nümayəndəliklərə xidmət göstərən «İnterservis» müdiriyyəti*
- *Bakı Şəhər Ticarət və Xidmət Departamenti*
- *Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti*
- *Yaşıllaşdırma Təsərrüfatı Birliyi*
- *Bakı Şəhər Baş Əsaslı Tikinti və Təmir İdarəsi*
- *İqtisadiyyat komitəsi*
- *Memarlıq və Şəhərsalma Baş idarəsi*
- *Mənzil Kooperativ Təsərrüfatı İdarəsi*
- *Bakı Şəhər Kino Xidməti idarəsi*
- *«Bakı Şəhər İşığı» Elektrik Şəbəkə Müəssisəsi*
- *Bakı Şəhər Baş Maliyyə İdarəsi*
- *Bakı Şəhər Baş Təhsil İdarəsi*
- *Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi*
- *Bakı Şəhər Baş Səhiyyə İdarəsi*
- *Bakı Şəhər Əhalinin Sosial Müdafiəsi İdarəsi*
- *Bakı Şəhər Məşğulluq İdarəsi*
- *Bakı Şəhər Gənjlər və İdman Baş İdarəsi*
- *Bakı Şəhər Baytarlıq İdarəsi*
- *Bakı Şəhər Torpaq İdarəsi*

Bu idarə və xidmətlərin bir hissəsi yalnız Bakı şəhər İcra Hakimiyyətinə tabe olan, digər hissəsi isə ikili tabelikdə olan (həm Bakı şəhər İcra Hakimiyyəti başçısına, həm də müvafiq

7 Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 16 iyun tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

nazirliklərə və baş idarələrə tabe olan) qurumlardır. Tabeçilik baxımından həmin qurumları aşağıdkı kimi qruplaşdırmaq olar:

*Cədvəl 3*

**Bakı şəhər İcra Hakimiyyətinin strukturuna daxil olan qurumların tabeçilik baxımından qruplaşdırılması**

| Yalnız Bakı şəhər İcra Hakimiyyətinin tabeçiliyində olan qurumlar | İkili tabeçilikdə olan qurumlar |
|---|---|
| 1) Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamenti | 1. Bakı Şəhər Baş Maliyyə İdarəsi |
| 2) Diplomatik korpusa və xarici nümayəndəliklərə xidmət göstərən «İnterservis» müdiriyyəti | 2. Bakı Şəhər Baş Təhsil İdarəsi |
| 3) Bakı Şəhər Ticarət və Xidmət Departamenti | 3. Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi |
| 4) Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti | 4. Bakı Şəhər Baş Səhiyyə İdarəsi |
| 5) Yaşıllaşdırma Təsərrüfatı Birliyi | 5. Bakı Şəhər Əhalinin Sosial Müdafiəsi İdarəsi |
| 6) Bakı Şəhər Baş Əsaslı Tikinti və Təmir İdarəsi | 6. Bakı Şəhər Məşğulluq İdarəsi |
| 7) İqtisadiyyat komitəsi | 7. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi |
| 8) Memarlıq və Şəhərsalma Baş idarəsi | 8. Bakı Şəhər Baytarlıq İdarəsi |
| 9) Mənzil Kooperativ Təsərrüfatı İdarəsi | 9. Bakı Şəhər Torpaq İdarəsi |
| 10) Bakı Şəhər Kino Xidməti idarəsi | |
| 11) «Bakı Şəhər İşığı» Elektrik Şəbəkə Müəssisəsi | |

Bakı şəhər İcra Hakimiyyətinin veb-saytında bu idarə, şöbə və xidmətlər haqqında çox kiçik və ümumi xarakterli informasiya yerləşdirilib. Bunların heç birinin əsasnaməsi yoxdur. Saytda olan

informasiyalar bu qurumların əksəriyyətinin məhz Bakı şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən yaradıldığı qeyd olunub. Bu qurumların bəzilərinin fəaliyyəti ayrı-ayrı mərkəzi icra hakimiyyəti orqanlarının funksiyalarının mənimsənilməsini (məsələn, Bakı Şəhər Ticarət və Xidmət Departamenti, İqtisadiyyat Komitəsi, Bakı Şəhər Kino Xidməti idarəsi və başqalarında olduğu kimi) nəzərdə tutursa, bir çoxu hətta birbaşa kommersiya fəaliyyəti göstərir (məsələn, «İnterservis» müdiriyyəti, Bakı şəhər Reklam və İnformasiya idarəsi və s.) və gəlir əldə edirlər.

Bakı şəhər İcra Hakimiyyəti başçısına tabe olan idarə və müəssisələrin fəaliyyət sferaları və tərkibinə diqqət yetirək:

**1. Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamenti**

Əsas fəalliyyəti:

- ✓ *xarici ölkə şəhərlərinin idarəetmə və şəhər infrastrukturunun müxtəlif sahələrdəki qabaqcıl təcrübənin öyrənilərək Bakıya cəlb olunması və tətbiqinin həyata keçirilməsi;*
- ✓ *xarici ölkə səfirliklərinin və diplomatik statusda olan digər Beynəlxalq təşkilatların nümayəndəliklərinin dislokasiyasına kömək, dipkorpusla əlaqələr;*
- ✓ *nümayəndə heyətlərinin, sərgilərin, yaradıcı heyətlərin, kütləvi informasiya vasitələrinin, təhsil ocaqlarının mübadləsinin təşkili, qarşılıqlı olaraq "Mədəniyyət günləri"nin və festivalların keçirilməsi və s.*

Tərkibi:

- ✓ *Rəhbərlik*
- ✓ *Beynəlxalq münasibətlər və xarici ölkələrin şəhərləri ilə əlaqələr sektoru*
- ✓ *Beynəlxalq protokol sektoru*
- ✓ *İnvestisiya proqramları sektoru*

- ✓ *Hüquq müqavilə sektoru*
- ✓ *Katiblik*

**2. Diplomatik korpusa və xarici nümayəndəliklərə xidmət göstərən «İnterservis» müdiriyyəti**

"İnterservis" müdiriyyətinin əsas fəaliyyəti Bakı şəhərində yerləşən diplomatik korpusa və xarici nümayəndəliklərə beynəlxalq normalara və tələblərə uyğun olaraq, müvafiq sahələr üzrə xidmət göstərməkdir. Belə xidmətlərə aiddir:

- ✓ *kommunal xidmətlərin göstərilməsi,*
- ✓ *Bakı şəhərinə gələn xarici qonaqların qəbulu,*
- ✓ *mehmanxana ilə təmin edilməsi,*
- ✓ *gəzintilərin təşkil edilməsi,*
- ✓ *yüksək səviyyəli sinxron tərcümə xidmətlərinin təşkili və s.*

Zuqulba qəsəbəsində yerləşən «Oazis» oteli də «İnterservis» müdiriyyətinin tərkibindədir.

**3. Bakı Şəhər Ticarət və Xidmət Departamenti**

Bakı Şəhər İcra Hakimiyyətinin strukturu olmaqla bir dövlət orqanı kimi fəaliyyət göstərir və şəhər ərazisində ticarətin, bütün növ xidmətin təşkilini və tənzimlənməsini həyata keçirir.

<u>Struktur vahidləri:</u>

- ✓ *Ərazi idarələri,*
- ✓ *qapalı təşkilatları lazımi məhsullarla təmin edən, onlara xidmət göstərən bazarlar (anbarlar),*
- ✓ *yeyinti-texnoloji laboratoriya*
- ✓ *keçidlər üzrə qurum.*

**4. Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti**

Bakı Şəhər İcra Hakimiyyəti Başçısının «Bakı şəhər mənzil-

kommunal təsərrüfatının idarəetmə sistemini təkmilləşdirmək tədbirləri haqqında» 12 may 1999-cu il tarixli, 444 saylı sərəncamı əsasında Bakı Şəhər İcra Hakimiyyəti Başçısının Aparatı strukturunda şəhər üzrə mənzil-kommunal xidməti sahəsində vahid idarəetmə orqanı kimi yaradılmışdır.

Departamentin strukturu:

- ✓ *Departamentin idarə aparatı,*
- ✓ *rayon Mənzil-Kommunal Təsərrüfatı Birlikləri,*
- ✓ *"Lifttəmir" İstehsalat Birliyi,*
- ✓ *Sahibsiz Heyvanlara Qarşı Mübarizə İdarəsi,*
- ✓ *Əhaliyə Vətəndaşlıq Xidməti Tresti,*
- ✓ *Bakı Şəhər Yollarının İstismarı İdarəsi,*
- ✓ *İnzibati Binaların İstismarı İdarəsi,*
- ✓ *Xüsusi təyinatlı Avtonəqliyyət İdarəsi,*
- ✓ *Təchizat və Komplektləşdirmə İdarəsi,*
- ✓ *Bakı Şəhər Fəvvarələrin İstismarı İdarəsi*
- ✓ *digər xidmət sahələri.*

**5. Yaşıllaşdırma Təsərrüfatı Birliyi** Bakı şəhər İcra Hakimiyyəti Başçısının 17 oktyabr 2005-ci il tarixli 272 saylı Sərəncamı əsasında ləğv edilmiş Abadlaşdırma və Park-Bağ Təsərrüfatının İnkişafı Departamentinin hüquqi varisidir. Birlik təsərrüfat hesablı, dəyəri qismən dövlət tərəfindən maliyyələşən hüquqi şəxsdir, müstəqil balansa malikdir. Birlik Bakı şəhər İcra Hakimiyyətinin rəhbərliyi və nəzarəti altında Bakı şəhərində və Abşeron yarımadasında yaşıllaşdırma və mövcud yaşıllıqlara qulluq işlərini mərkəzləşdirilmiş qaydada həyata keçirir.

Birliyin tərkibi:

- ✓ *“Yaşıllıqtikinti” Podrat İxtisaslaşdırılmış Təmir Tikinti Müəssisəsi*
- ✓ *Ağac Bəzək Bitkiləri Sovxozu*
- ✓ *Avtonəqliyyat idarəsi*
- ✓ *Bitkilərinin Mühafizəsi Stansiyası*
- ✓ *Su quyularının İstismarı və Təmiri Xidməti idarəsi*

**6. Bakı Şəhər Baş Əsaslı Tikinti və Təmir İdarəsi**

Bakı Şəhərində yaşayış evlərinin, kommunal obyektlərin, abadlaşdırma, yol, təhsil, səhiyyə, mədəniyyət, sosial-təminat, ictimai binaların tikintisi və əsaslı təmiri funksiyasını yerinə yetirir. Eyni zamanda yaşayış evlərinin tikintisində və texniki nəzarətin təşkilində, vətəndaşlara, müəssisə və təşkilatlara xidmət göstərir.

**7. İqtisadiyyat Komitəsi**

Bakı Şəhər İcra Hakimiyyəti Başçısının 07.05.1993-cü il tarixli, 824 saylı sərəncamı ilə 1920-ci ildən fəaliyyət göstərən Bakı Şəhər Plan Komissiyasının bazasında Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının İqtisadiyyat Komitəsi yaradılmışdır. Hal-hazırda Komitədə 16 əməkdaş və müxtəlif sahələrlə əlaqəli şəkildə fəaliyyət göstərən 3 şöbə mövcuddur.

Bakı Şəhər İqtisadiyyat Komitəsi Bakı şəhərində ümumilikdə iqtisadiyyatın idarə edilməsi işinə rəhbərlik edən dövlət strukturu olaraq aşağıdakı məsələlərlə məşğul olur:

- ✓ *Bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş tədbirlər kompleksinin hazırlanması və həyata keçirilməsi.*
- ✓ *Şəhərdə iqtisadi münasibətlərin yenidən qurulması proseslərinin idarə edilməsi.*

- ✓ *Şəhərin sosial-iqtisadi inkişafının proqnozlaşdırılması və vahid tarif (qiymət) siyasətinin həyata keçirilməsində müvafiq dövlət orqanları ilə birgə əməkdaşlıq etmək.*
- ✓ *Sənaye, sosial-mədəni, nəqliyyat, kommunal və tikinti müəssisələrinin fəaliyyətinin təhlili.*
- ✓ *Əmək ehtiyatlarından məqsədyönlü istifadə edilməsi. Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan təşkilatların xərclər smetasının təhlili, əsaslı tikinti və təmir üzrə titul siyahılarının təsdiq edilməsi.*
- ✓ *Müxtəlif mülkiyyət formalı müəssisə və təşkilatların fəaliyyətinin təhlili və onların fəaliyyətində inhisarçı təzahürlərin aradan qaldırılması sahəsində stimullaşdırma sisteminin işlənib hazırlanması və tətbiq edilməsi, şəhər əhalisinin sosial müdafiəsini təmin edən şəraitin yaradılması.*
- ✓ *Şəhərin və şəhər icra hakimiyyətinin tabeliyindəki təsərrüfatların sosial-iqtisadi inkişafına dair proqnozların, sosial-iqtisadi proqramların hazırlanıb şəhər icra hakimiyyətinin başçısının müzakirəsinə verilməsi və onların icrası ilə əlaqədar sənədlərin Azərbaycan Respublikası Prezidentinə və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilməsi.*
- ✓ *Şəhər təsərrüfatının inkişafı və səmərəliliyinin artırılması, iqtisadi islahatların keçirilməsi ilə əlaqədar olaraq, şəhər və rayon icra hakimiyyətlərinin digər idarə və şöbələrinə ayrı-ayrı mövcud problemlərin aradan qaldırılması və bu barədə təkliflərin hazırlanması üzrə birgə əməkdaşlıq.*
- ✓ *Şəhərin idarə, təşkilat və müəssisələrində Komitənin səlahiyyəti daxilində yerində təhlillərin aparılması və nəticələrinin araşdırılıb, çatışmamazlıqlar barədə yerində təkliflərin verilməsi.*

**8. Memarlıq və Şəhərsalma Baş idarəsi** Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamına əsasən Memarlıq və tikinti üzrə şöbə 1969-cu ildən Memarlıq və Şəhərsalma Baş idarəsi kimi fəaliyyət göstərir. Onun yanında fəaliyyət göstərən qurumlar:

- ✓ *Bakı şəhər Reklam və İnformasiya idarəsi*
- ✓ *Şəhər ərazisinin tikinti-planlaşdırma idarəsi.*

**9. Mənzil Kooperativ Təsərrüfatı İdarəsi** əsasən aşağıdakı funksiyaları yerinə yetirir:

- ✓ *Mənzil-Tikinti Kooperativlərinin qeydiyyata alınması;*
- ✓ *MTK-ların Nizamnamələrinin təsdiq edilməsi;*
- ✓ *bina tikilərkən MTK rəhbərliyinin təqdim etdiyi sənədlərə əsasən order və qeyri-yaşayış sahələrinə sərəncamların verilməsi;*
- ✓ *istismarda olan MTK-larda təqdim edilmiş sənədlərə əsasən mənzillərin addan-ada keçirilməsinə dair sərəncam verilməsi;*
- ✓ *MTK-lardan daxil olan ərizə və şikayətlərin araşdırılması və tədbir görülməsi.*

**10. Bakı Şəhər Kino Xidməti idarəsi** Bakı şəhər İcra hakimiyyəti Başçısının 05.08.1992-ci il tarixli 1104 saylı Sərəncamı ilə yaradılmışdır. İdarə Bakı şəhərində fəaliyyət göstərən bütün kinoteatrlara və videoxidmət obyektlərinə nəzarət edir.

**11. «Bakı Şəhər İşığı» Elektrik Şəbəkə Müəssisəsi** əsasən şəhərin küçə, park, bağ, xiyaban, körpü, yol və meydan işiqlarının plan-profilaktik, təmir və istismar işləri ilə məşğuldur.

## Bakı şəhər İcra Hakimiyyətinin əmlakı və fəaliyyətinin maliyyələşdirilməsi

Bakı şəhər İcra Hakimiyyətinin sərəncamında olan əmlakın tərkibinə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan vəsaitlər və məqsədli fondların vəsaiti, dövlət yaşayış fondu, dövlət yaşayış fondunun evlərində qeyri-yaşayış binaları, mühəndis-kommunikasiya, infrastruktur obyektləri (su kəmərləri, kanalizasiya təsərrüfatları, istilik təchizatı, elektrik təchizatı, qaz təchizatı, şəhər elektrik nəqliyyatı qurğuları və şəbəkələri, digər abadlıq obyektləri), istehlakçılara bilavasitə kommunal xidmətlər göstərən və şəhər ərazisində yerləşən və qanunvericiliklə müəyyən edilmiş qaydada onun sərəncamına verilmiş digər əmlak daxildir. Bu əmlak torpaq sahələri, təbii obyektlər, maliyyə aktivləri, qeyri-yaşayış binaları, müəssisələr və digər əmlak komplekslərindən, xalq təhsili, mədəniyyət, səhiyyə və idman müəssisələrindən, müvafiq ərazinin iqtisadi inkişafının və əhalinin kommunal-məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün nəzərdə tutulan digər əmlakdan ibarətdir.

Əsasnamənin 22-ci maddəsinə (Yerli icra hakimiyyətlərinin maliyyə mənbələri) uyğun olaraq, yerli icra hakimiyyətlərinin maliyyə mənbələri dövlət büdcəsindən ayırmalardan və qeyri-büdcə vəsaitindən, alınan kreditlərdən və qanunvericiliklə nəzərdə tutulmuş digər mənbələrdən əldə edilmiş vəsaitdən ibarətdir.

Bakı şəhər İcra Hakimiyyətinin fəaliyyətinin maliyyə mənbələri aşağıdakılardır:

- ✓ *Dövlət büdcəsindən Bakı şəhərinə ayrılan yerli xərclər (bu vəsaitlər həm Bakı şəhər İcra Hakimiyyətinin, həm də şəhər rayonlarının icra hakimiyyətlərinin fəaliyyətinin maliyyələşdirilməsi üçündür);*
- ✓ *Dövlət büdcəsindən Bakı şəhərinə ayrılan digər vəsaitlər (məsələn, büdcənin "Sənaye, tikinti və faydalı qazıntılar" bölməsi üzrə Bakı şəhərinə ayrılan investisiya xarakterli*

*müəyyən vəsaitlər, büdcənin ehtiyat fondlarından Bakı şəhərinin abadlaşdırılmasına, habelə başqa məqsədlərə yönəldilən vəsaitlər və s.);*

- ✓ *Bakı şəhər büdcəsinə daxil olan müxtəlif növ ödəmələr (məsələn, avtomobil dayanacaqlarına görə ödənişlər, reklam ödənişləri və s.);*
- ✓ *Bakı şəhər İcra Hakimiyyətinin strukturuna daxil olan ayrı-ayrı müəssisələrin təsərrüfat hesablı gəlirindən ayırmalar;*
- ✓ *Müxtəlif hüquqi və fiziki şəxslərin könüllü ianələri və yardımları;*
- ✓ *Bakı şəhər İcra Hakimiyyətinə və onun qurumlarına verilən qrantlar və kreditlər;*
- ✓ *Qanunvericiliyə uyğun olaraq daxil olan başqa gəlirlər.*

Qeyd etməliyik ki, hazırda Bakı şəhəri İcra Hakimiyyətinin (habelə şəhər rayonlarının icra hakimiyyəti orqanlarının) fəaliyyətinin maliyyə əsasları, icra hakimiyyətinin büdcəsinin bütün gəlirləri və xərcləri haqqında detallı informasiya almaq mümkünsüzdür. Yalnız dövlət büdcəsindən ayrı-ayrı bölmələr üzrə Bakı şəhərinə ayrılan vəsaitlər haqqında ümumi məlumatları illər üzrə dövlət büdcəsi ilə bağlı qanunvericilik sənədlərindən tapmaq olar. Bunlar da əsasən proqnoz göstəriciləri əks etdirir. Bakı şəhər İcra Halimiyyətinin və şəhər rayonları üzrə icra hakimiyyəti orqanlarının büdcəsinin digər gəlirləri və xərcləri barədə məlumatlar ictimaiyyətə açıqlanmır. Belə məlumatların əldə edilməsi ilə bağlı Bakı şəhər İcra Hakimiyyəti başçısına göndərilən informasiya sorğuları cavablandırılmır.

Mövcud qanunvericilikdə Bakı şəhəri üzrə yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhər İH başçısının və şəhər rayonlarının icra hakimiyyətləri başçılarının) nə hansısa bir seçkili dövlət orqanının, nə də ictimaiyyətin qarşısında hesabatlılığı nəzərdə tutulmur və yoxdur.

## Bakı şəhərində
## yerli özünüidarəetmənin təşkili

Hazırda Bakı şəhəri ərazisində 52 bələdiyyə, o cümlədən 7 rayon və 45 qəsəbə bələdiyyəsi fəaliyyət göstərir. Bakı şəhərinin rayonları üzrə bələdiyyələrin sayı aşağıdakı kimidir.

*Cədvəl 4*

**Bakı şəhərinin rayonları üzrə bələdiyyələrin sayı (ədəd)**

| Bakı şəhərinin rayonları | Əhalinin sayı[8], (min nəfər) | Bələdiyyələrin sayı, cəmi | O cümlədən: | |
|---|---|---|---|---|
| | | | Rayon bələdiyyəsi | Qəsəbə bələdiyyəsi |
| 1. Xətai rayonu | 245.2 | 2 | 1 | 1 |
| 2. Binəqədi rayonu | 238.6 | 5 | 1 | 4 |
| 3. Yasamal rayonu | 232.1 | 1 | 1 | - |
| 4. Sabunçu rayonu | 220.1 | 10 | - | 10 |
| 5. Nəsimi rayonu | 208.3 | 1 | 1 | - |
| 6. Suraxanı rayonu | 195.0 | 6 | - | 6 |
| 7. Nizami rayonu | 178.1 | 2 | 1 | 1 |
| 8. Əzizbəyov rayonu | 169.1 | 10 | - | 10 |
| 9. Nərimanov rayonu | 161.1 | 1 | 1 | - |
| 10. Qaradağ rayonu | 108.2 | 11 | - | 11 |
| 11. Səbail rayonu | 90.3 | 3 | 1 | 2 |
| **Cəmi** | **2046.1** | **52** | **7** | **45** |

8 Azərbaycan Respublikasında 2009-cu ildə əhalinin siyahıya alınmasının ilkin nəticələrinə görə, 13.04.2009 tarixinə. Mənbə: Dövlət Statistika Komitəsi

## BEYNƏLXALQ TƏCRÜBƏDƏ PAYTAXT ŞƏHƏRLƏRİN STATUSU

*Bütün ölkələrin paytaxtı var, lakin «paytaxt şəhər» üçün vahid tərif və ya ümumi meyar mövcud deyildir. Bəzən ölkələrin paytaxt şəhərləri tarixi və mədəni əhəmiyyətə, bəzən mövcud siyasi əhəmiyyətə (yəni, əsas dövlət qurumlarının yerləşdiyi ərazi kimi), bəzən isə müvafiq hüquqi sənədlərə əsasən müəyyən edilir.*

Bununla belə, bu meyarların hər hansı birini və ya bir neçəsini standart kimi qəbul etmək düzgün olmazdı. Belə ki, elə ölkələr (məs: Ukrayna və Baltikyanı dövlətlər) vardır ki, onlar yeni müstəqillik qazanıblar və tarixi baxımdan onların paytaxtlarının meydana gəlməsi son bir neçə onilliyə təsadüf edir. Bununla yanaşı, bəzi dövlətlərdə (məs: Hollandiya) əsas siyasi institutlar paytaxtda deyil, başqa bir şəhərdə yerləşir. Və nəhayət, paytaxt şəhərlərin müəyyən edilməsi hüquqi sənədlərə istinad etmək də kifayət etmir, çünki bir sıra ölkələrin konstitusiyalarında paytaxt şəhər haqqında heç bir konkret müddəa əks olunmur.

Bununla belə, araşdırmaya cəlb olunmuş ölkələrin bəzilərinin paytaxt şəhərləri üçün bir sıra ümumi cəhətlər mövcuddur. Birincisi, əksər ölkələrdə digər şəhərlərlə müqayisədə ölkə əhalisinin böyük hissəsi məhz paytaxt şəhərlərində məskunlaşmışdır.

1-ci diaqramdan göründüyü kimi, seçilmiş paytaxt şəhərləri üzrə aparılan statistik təhlillər göstərir ki, ümumilikdə ölkə əhalisinin təqribən 16%-i təkcə paytaxt şəhərlərində məskunlaşmışdır.

*Diaqram 1*

**Paytaxt şəhərlərində yaşayan əhalinin ümumi ölkə əhalisində payı**




**Mənbə: www.citypopulation.de**

Bu cür vəziyyət özünü eyni zamanda əhalinin artım tempində də göstərir. Bununla yanaşı, paytaxt şəhərləri üçün digər ümumi cəhət onların əhalisinin ölkənin ikinci ən böyük şəhərinin

əhalisindən ən azı iki dəfə çox olmasıdır. Bu fərq hətta Macarıstanda 8 dəfə, Latviyada və Ermənistanda isə 7 dəfədir.

*Cədvəl 5*

**Paytaxt şəhəri və ikinji ən böyük şəhərdə məskunlaşmış əhalinin sayı arasında fərq**

| Paytaxt şəhər | Əhalisi (min nəfər) | İkinci ən böyük şəhər | Əhalisi (min nəfər) | Fərq (dəfə) |
|---|---|---|---|---|
| Belqrad | 1120,1 | Novi sad | 191 | 6 |
| Bratislava | 417,7 | Koşice | 223 | 2 |
| Budapeşt | 1697,3 | Debreçen | 204 | 8 |
| Buxarest | 1921,8 | İaşi | 322 | 6 |
| Kiev | 2660,4 | Xarkov | 1465 | 2 |
| Kişinyov | 593,8 | Tiraspol | 158 | 4 |
| Lyublyana | 246,8 | Maribor | 91 | 3 |
| Minsk | 1765,8 | Qomel | 481 | 4 |
| Moskva | 10126,4 | Sankt-Peterburq | 4661 | 2 |
| Praqa | 1188,1 | Brno | 367 | 3 |
| Riqa | 727,6 | Daugavpils | 110 | 7 |
| Sarayevo | 380 | Banya Luka | 165 | 2 |
| Skopye | 466,8 | Kumanovo | 78 | 6 |
| Sofiya | 1126,4 | Plovdiv | 347 | 3 |
| Tallin | 401,2 | Tartu | 100,2 | 4 |
| Tibilisi | 1095 | Kutaisi | 190 | 6 |
| Tirana | 343,1 | Dürres | 100 | 3 |
| Varşava | 1700,5 | Lodz | 764 | 2 |
| Vilnüs | 542,8 | Kaunas | 358 | 2 |
| Yerevan | 1103,8 | Gyumri | 148 | 7 |
| Zaqreb | 783,5 | Split | 189 | 4 |

**Mənbə: www.citypopulation.de**

Paytaxt şəhərləri üçün digər ümumi xüsusiyyət onların ölkə iqtisadiyyatında mühüm əhəmiyyətə malik olmasıdır. Bir sıra ölkələrdə paytaxt şəhərlər ÜDM-un böyük hissəsini təmin etməklə, ölkə iqtisadiyyatında mühüm rol oynayırlar. Belə ki, Gürcüstanda ÜDM-un 2/3-si (Losaberidze, 2006), Latviyada 56%-i (Vanags və Vilka, 2006), Moldovada 60%-i (Munteanu, 2006) və Estoniyada təqribən 50%-i (Maeltsemees, 2007) məhz paytaxt şəhərlərinin payına düşür.

## Paytaxt şəhərlərin statusunun qanunvericilikdə əks olunması

Paytaxt şəhərlərinin statusunun yerli qanunvericiliklərdə nə dərəcədə əks olunmasını təhlil etmək paytaxt şəhərlərinin statusu haqqında təsəvvür yaratmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Avropa Şurasının müstəqil ekspertlərinin quruma üzv dövlətlər arasında apardıqları sorğunun nəticələrinə istinadən, paytaxt şəhərləri haqqında ali qanunlarda müvafiq müddəaların əks olunub-olunmadığına görə ölkələri 2 qrupa ayırmaq olar: (i) paytaxt şəhərlərinin statusu barədə ali qanunlarında xüsusi müddəalar nəzərdə tutulan ölkələr və (ii) nəzərdə tutulmayan ölkələr. Buna baxmayaraq, bu cür bölgünü aparmaq o qədər də dəqiq hesab edilmir, çünki bəzi paytaxt şəhərlər haqqında ali qanunvericilikdə xüsusi müddəalar nəzərdə tutulmasa da, bir sıra dövlət əhəmiyyətli hüquqi sənədlərdə bu barədə dolayı məlumat verilir:

*Cədvəl 6*

**Paytaxt şəhərlərin statusunun mənbəyi**

| Paytaxt şəhərin statusu haqqında konstitusiyada xüsusi müddəa nəzərdə tutan ölkələr | Paytaxt şəhərin statusunu xüsusi qanunla müəyyən edən ölkələr | Şərti qaydalar (yazılı hüquqi statusu olmayanlar) |
|---|---|---|
| Albaniya, Ermənistan, Avstriya, Belçika, Bolqarıstan, Xorvatiya, Çexiya, Gürcüstan Almaniya, Macarıstan, İslandiya, İrlandiya, İtaliya, Latviya, Lixtenşteyn, Lüksemburq, Makedoniya, Hollandiya, Norveç, Polşa, Rumıniya, Rusiya, İspaniya, Slovakiya, Sloveniya, Türkiyə, Ukrayna | Estoniya, Yunanıstan, Litva, Moldova, İsveç, İsveçrə | Kipr, Danimarka, Finlandiya, Fransa, Malta, Portuqaliya, Birləşmiş Krallıq |

**Mənbə: Avropa Şurası, 2007**

Cədvəldən göründüyü kimi bəzi ölkələrin paytaxtları haqqında həmin ölkələrin konstitusiyalarında və ya digər bu kimi ali qanunlarında müvafiq müddəalar nəzərdə tutulsa da, bəzi ölkələrdə paytaxt şəhərlərinin statusu ya qanunvericilikdə dolayı ilə göstərilir ya da bu status tarixi ənənələrə və sosial razılığa əsaslanır (məs: Fransa və Böyük Britaniya). Hətta ölkələrin konstitutsiyasında paytaxt şəhərlərinin statusları haqqında müvafiq müddəalar öz əksini tapsa belə, bu çox hallarda formal xarakter daşıyır və paytaxt şəhərlərin müəyyən olunmasında tarixi, mədəni və siyasi amillər daha çox rol oynayır. Bununla belə, bəzi ölkələrin (məs: Belçika, Türkiyə, Hollandiya və Çexiya) konstitusiyalarında payxtat şəhərlərin statusu, bu statusun nə anlama gəldiyi barədə geniş məlumat verilir. Məsələn, Çexiyanın qanunvericiliyinə əsasən Praqa şəhəri ölkənin paytaxtı və ayrıca regionu kimi qəbul edilir.

## Paytaxt şəhərlərinin inzibati statusu və özünüidarə modelləri

Paytaxt şəhərlərinin inzibati statusu dedikdə bu şəhərləri idarə edən vahid səlahiyyətli orqanın mövcud olub-olmaması nəzərdə tutulur. Avropa şurasına daxil olan dövlətlərin hamısında (Azərbaycan istisna olmaqla) paytaxt şəhərlərində vahid idarəetmə orqanı yaradılmışdır və bu şəhərlərə «xüsusi inzibati status» verilmişdir. Paytaxt şəhərlərinin «xüsusi inzibati statusunun» müəyyən edilməsi bəzən müvafiq ölkələrin yerli özünüidarəetmə sistemi haqqında qanunlarında, yaxud paytaxt şəhərlərinin statusu haqqında xüsusi qanunlarda öz əksini tapır. Paytaxt şəhərlərinin «xüsusi inzibati status»u ədəbiyyatda 2 cür izah edilir:

1) ikili statusa malik olan paytaxt şəhərləri «xüsusi statuslu» paytaxtlar hesab olunur. Bu cür paytaxt şəhərləri vahid yerli özünüidarə strukturu olmaqla yanaşı, həm də digər bir statusa (məs: Praqada –region, Vyana və Berlində - Land, Madriddə - regional paytaxt və s.);

2) «Xüsusi inzibati status» paytaxt şəhərləri özünəməxsus daxili struktura və qaydalara (məs: seçki sistemi, ölkənin digər şəhərlərindən fərqlənən daxili quruluş, müxtəlif idarəetmə və maliyyələşmə qaydası və s.) malik olur.

Bununla belə, bəzi hallarda «xüsusi inzibati struktur» təkcə paytaxt şəhərlərinə deyil, həm də ölkənin digər şəhərlərinə də aid edilə bilər. Məsələn, Türkiyədə paytaxt Ankara ilə yanaşı digər 3 böyük şəhərə «xüsusi inzibati status» verilib. Eyni vəziyyətə İspaniya və Yunanıstanda da rast gəlmək mümkündür.

Bundan əlavə, bir sıra ölkələrdə paytaxt şəhərləri onları ölkənin digər şəhərlərindən fərqləndirəcək xüsusi statusa malik deyillər:

*Cədvəl 7*

**Statuslarına görə paytaxt şəhərlərinin bölgüsü**

| Xüsusi statusu olan | Xüsusi statusu olmayan | |
|---|---|---|
| | Minimal fərq | Vahid inzibati status |
| Berlin, Bratislava, Brüssel, Budapeşt, Buxarest, Kiyev, London, Madrid, Moskva, Oslo, Praqa, Riqa, Roma, Tbilisi, Tirana, Sofiya, Skopye, Vyana, Varşava, Zaqreb | Afina, Kopenhagen, Lüksemburq, Paris, Stokholm, Tallin | Amsterdam, Ankara, Bern, Dublin, Helsinki, Lissabon, Lyublyana, Nikosiya, Reykyavik, Vadus, Vilnüs |

**Mənbə: Avropa Şurası, 2007**

Adətən paytaxt şəhərlər status etibarı ilə vahid idarəetmə struktura malik olurlar və eyni zamanda daxili quruluş baxımından müxtəlif idarəetmə orqanlarına bölünürlər. Ölkələrin təcrübəsi göstərir ki, paytaxt şəhərlər qanunvericiliyin nəzərdə tutduğu qaydalar çərçivəsində öz daxili strukturlarını müəyyənləşdirmək səlahiyyətinə malikdirlər. Belə ki, paytaxt şəhərlərinin ərazisi və əhalisi digər şəhərlərinkindən normalda daha böyük olduğundan idarəetmənin səmərəliliyini artırmaq baxımından paytaxtların xüsusi idarəetmə strukturunun formalaşdırılması zəruri əhəmiyyət kəsb edir. Bu qaydaya əsasən, paytaxt şəhərləri üçün əsasən bir və iki pilləli idarəetmə sistemləri xarakterikdir:

*Cədvəl 8*

**Avropanın paytaxt şəhərlərində
bir ya iki pilləli
yerli özünüidarə hökumətləri**

| Vahid sistem | İnzibati bölgülü sistem | | |
|---|---|---|---|
| | Rayon özünüidarə orqanları | Qanunla və ya paytaxt şəhəri tərəfindən təsis edilmiş inzibati rayonlar | |
| | | Seçkili şura | Seçkisiz şura |
| Bern | Ankara (16) | Amsterdam (14) | Afina (7) |
| Brüssel | Budapeşt (23) | Bratislava (17) | Kişinyov (5) |
| Dublin | London (33) | Berlin (12) | Kopenhagen |
| Helsinki | Moskva (123) | Buxarest (6) | Madrid (21) |
| Nicosia | Skopya (10) | Kiyev (10) | Oslo |
| Lissabon | Tirana (11) | Paris (20) | Sofiya (24) |
| Lyublyana | Zaqreb (17) | Praqa (22) | Stokholm (18) |
| Lüksemburq | | Roma (20) | Tibilisi (6) |
| Reykyavik | | Tallin (8) | Vilnüs (21) |
| Riqa | | Vyana (23) | |
| Vaduz | | Varşava (18) | |
| Valletta | | | |

**Mənbə: Avropa Şurası, 2007**

Tədqiqat obyekti kimi seçilən paytaxt şəhərlərinin əksəriyyəti inzibati struktur baxımından çoxlu sayda inzibati ərazi vahidlərinə bölünüb. Onlardan bəzilərində inzibati rayonlar ayrıca yerli özünüidarə orqanı hesab edilmir, həmçinin bu cür ərazi vahid-

liklərinin yaradılması, dəyişdirilməsi yaxud ləğvi paytaxtın ali idarə orqanının qərarı ilə reallaşdırılır. Bir sıra ölkələrdə (məs: Belçika) inzibati rayonların yaradılması ölkə qanunvericiliyi ilə tənzimlənir və müəyyən meyarlara (məs: əhali sayına) əsaslanır. Bəzən paytaxt şəhərlərinin yerli özünüidarə orqanı inzibati rayonlar təsis edir, lakin bu inzibati rayonların yerli özünüidarəetmə şurasına üzvlər seçkilər vasitəsilə seçilirlər (məs: Berlin, Bratislava, Kiyev, Praqa və s.). Başqa bir halda isə (məs: Norveç) paytaxt şəhərlərin inzibati ərazi vahidlərini idarə edən şura üzvləri paytaxt şəhərlərinin yerli özünüidarə orqanı tərəfindən təyin olunurlar. Bütün bu nümunələrdə inzibati rayonların yaradılmasında fərqli mexnizmlər tətbiq olunsa da, onların heç birində inzibati rayonlar müstəqil hesab edilmirlər – hətta bu cür rayonların seçkili orqanı və seçilmiş rəhbəri olsa da belə. Bir qayda olaraq ikipilləli idarəetmə sistemində paytaxt şəhərlərinin inzibati ərazi vahidlərinə bölgüsü qanunla tənzimlənir və həm inzibati ərazi vahidləri, həm də paytaxt şəhəri ayrıca yerli özünüidarə orqanı hesab edilir və inzibati ərazi vahidlərinin yaradılması paytaxt şəhərinin rəhbərliyindən asılı olmur. Bu cür sistemlərdə (məs: Macarıstan və Makedoniya) paytaxt şəhərlərinin inzibati ərazi vahidlərinin nəinki sayı, həmçinin sərhədləri, daxili quruluşu, seçki sistemi və maliyyə resursları dövlət qanunvericiliyi ilə tənzimlənir.

## Paytaxt şəhərlərinin yerli özünüidarə orqanları

Vahid yerli özünüidarə etmə strukturu olmayan paytaxt şəhərləri istisna olmaqla (məs: Bakı), digər paytaxt şəhərlərində müəyyən idarəetmə qurumu vardır və bu qurum qanunverici qurum hesab olunur. Bir sıra federal dövlətlərdəki kimi ikili statusa

malik olan paytaxt şəhərlərində isə paralel qurumlar fəaliyyət göstərmir və şəhər rəhbərliyi (və ya idarəetmə qurumu) eyni zamanda şəhərin digər statusu üzrə vəzifə və səlahiyyətlərə malik olur. Məsələn, Vyanada şəhərin ali yerli özünüidarə orqanı həmçinin Vyana Land Parlamenti hesab olunur. Şəhəri idarə edən bu qurumun ölçüsü yerli nümayəndələrin sayından asılı olaraq 15 nəfərlə 150 nəfər arasında dəyişir. Təcrübə göstərir ki, paytaxt şəhərlərinin şurasının üzvləri əsasən proporsional üsulla 4 il müddətinə seçilirlər:

İcraedici orqana gəldikdə, bir çox paytaxt şəhərlərində bu funksiyanı şəhərin meri həyata keçirir. Merin seçilməsi və onun şəhərin idarəçiliyində rolu müxtəlif ölkələrdə fərqli qaydada təmin olunur. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, paytaxt şəhərlərinin merinin öz vəzifəsində qalma müddəti şəhər şuralarında olduğu kimi əsasən 4 illə (məs: Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Yunanıstan və s.) 6 il (məs: Belçika, Fransa, Hollandiya və s.) arasında dəyişir:

1) Paytaxt şəhərinin meri birbaşa seçkilərin nəticəsində məlum olur və o eyni zamanda Şəhər Şurasının rəhbəri vəzifəsini daşıyır (məs: Buxarest, Kişinyov, Kiyev, Lyublyana, Skopye və Tirana);

2) Mer şəhərin yerli özünüidarə orqanı şurası tərəfindən seçilir və o Şəhər Şurasının rəhbəri olmaqla yanaşı, eyni zamanda Şura üzvü hesab edilir (məs: Tbilisi);

3) Mer şəhərin yerli özünüidarə orqanı şurası tərəfindən seçilir, ancaq o Şəhər Şurasının üzvü hesab edilmir (məs: Tallin).

Bununla belə, icraedici funksiyanın kollegial orqan tərəfindən həyata keçirildiyi paytaxt şəhərlərinə rast gəlmək mümkündür. Bəzi ölkələrdə mer yeganə icraedici orqan hesab edilmir və əsasən müvafiq funksional komitələrin köməyi ilə fəaliyyətini qurur.

*Cədvəl 9*

## Şura üzvlərinin sayı və onların fəaliyyət müddəti

| Paytaxt şəhərlər | Şəhər şurasında üzvlərin sayı | İdarəetmə müddəti | Bir şura üzvünə düşən əhali sayı (1000 nəfər) |
|---|---|---|---|
| Belqrad | 90 | 4 | 12.4 |
| Bratislava | 80 | 4 | 5.2 |
| Buxarest | 55 | 4 | 34.9 |
| Budapeşt | 66 | 4 | 25.7 |
| Kişinyov | 51 | 4 | 11.6 |
| Kiyev | 120 | 5 | 22.2 |
| Lyublyana | 45 | 4 | 5.5 |
| Minsk | 55 | 4 | 32.1 |
| Praqa | 70 | 4 | 16.9 |
| Riqa | 60 | 4 | 12.1 |
| Sarayevo | 28 | 4 | 13.6 |
| Skopye | 45 | 4 | 10.4 |
| Sofiya | 61 | 4 | 18.5 |
| Zaqreb | 51 | 4 | 15.3 |
| Tallin | 63 | 4 | 6.4 |
| Tbilisi | 37 | 4 | 29.6 |